## Ruh düşünəndə yaşayir

***"Fikir yüklü sənətkaram.
Düşünürəm aram-aram;
Tanrım saxla nəzərində,
Bu torpağın üzərində
Düşündükcə bəxtiyaram".***

***Hamlet İsaxanlı***

*Düşünmək - ruhun təbiətinə xas olan bitməz-tükənməz ehtiyacdır. Daim yeniləşən bu ehtiyacı ödəmək ruhun həyatı deməkdir. Dekart əslində bu mənada deyib: "Düşünürəm, deməli, yaşayıram". Hegel isə belə deyir: "İnsan həmişə düşünür, hətta sadəcə seyrə dalan zaman ". İdraka hakim olan bu zərurət hansı amillə şərtlənir? Əlbəttə, başlıca amil dünyanı dərk etməyə can atmaqdır. Bu idrak eşqi yaradır yaddaşın mənalı fikir yükünü.*

Bu mətləbə toxunmağa həmin yazının mövzusu sövq etdi. Mövzu: Hamlet İsaxanlının *"Bu da bir həyatdı* "kitabıdır. Anılan şeirlər kitabının əsas məzmunu haqqında söhbət gedəcək. Bu xüsusda söz açmazdan, bir məqama diqqət edək. Hamlet İsaxanlı poeziyası onun *"Təzadlar"* kitabı sayəsində şöhrətləndi. Mətbuatda şeirlərinin orijinallığını vurğulayan neçə rəylər nəşr edildi. Neçə-neçə şeirlərinə musiqi bəstələdilər; hazırda müğənnilər oxııyurlar: 'Təzadlar"ın sədaları İrana, Türkiyəyə, Gürcüstana yayıldı maraq oyatdı. Bir qədər əvvəl Təbrizdə ərəb əlifbasında nəşr edilib. Onu *"Şerə dönən duyğular"* adı ilə kütləvi yayıblar. Gürcüstanda isə Hamlet müəllimin şeirlərini tanınmış yazıçı İmir Məmmədli gürcü dilinə çevirib. Eynilə geniş yayılan həmin şeirlər kitabını tərcüməçi *"Sisosxlis poezia" ("Həyat poeziyası")* adlandırıb. İndi Hamlet İsaxanlı poeziyası Moskvada rus dilində səslənəcək. Yaxınlarda Alla Axundovanın tərcüməsində poetik toplusu nəşr ediləcək.

Hamlet Isaxanlının şeirlərinə bu qədər marağın sirri nədədir? Onun poeziyasında yaradıcı fərdiliyi necə izah etmək olar? *Onun bu fərdiliyi intellektlə poeziyanın daxili vəhdətinə əsaslanır. Poetik ümumiləşdirmələrdə fikirlərə meydan vermək üslubu əsas xüsusiyyətidir. "Təzadlar "* kitabında bu xüsusiyyət artıq bariz ifadəsini tapmışdı. *"Poeziya intellektlə qovuşur"* məqaləmdə bu həqiqət ciddi əsaslandırılıb. İndi 'Bu da bir həyatdı" kitabından söhbət gedir. *Bu kitabla "Təzadlar" arasında bir varislik bağlılığı mövcuddur. Hər ikisində poetik axtarışların hərəkət qüvvəti-canlı fikirdir. Həyatın ziddiyyətli axarının mənasına varmaq meyli Hamlet İsaxanlının şeir sənətində üstün xüsusiyyətdir.*

Onun ikinci kitabında belə səciyyəli şeirlərdən "Bu *həyatdı"* ilk əvvəl diqqəti çəkir. Burda əsas fikir budur: yaşanılan ovqatların dəyişən müxtəlifliyi təzadlı gedişatdan doğan haldır. Bu ovqatlar dünyasından başlanır insan varlığının ömür duyğusu. Həmin mövzu *"Ömrün harasındayıq'* şerində başqa baxımdan açılır. Onun təcəssüm etdirdiyi fikir özündə hansı mənanı daşıyır? İnsan yaşadıqca həyatı duyur, ancaq yenə o, daim bilinənlə bilinməzlik arasında mövcuddur. Zaman

gedişində ona ayrılan ömür payının sərhəddi budur onun üçün bu bilinməzlik. Bu fikrə köklənən həmin şeirdən bir parça nümunə:

***Könül coşmaq istər, meydanımız dar,***
***Sıyrıla bilmirik, köhnə qındayıq.***
***Ruhumuz bədəndə tutmayır qərar,***
***Biz iki sevdanın arasındayıq;***
***Birdə... bir nisgil var ürəyimizdə,***
***Bilmirik ki, ömrün harasındayıq.***

Ömrün harasında olduğumuzu bilməsək belə, keçmişlə gələcəyin arasında həyat sürməyimiz bizə əyandır. Bu aralıq zaman "indi" anlamı ilə ifadə edilir. "İndi", - deyir Aristotel, - zamanın fasiləsiz bağhlığıdır: o keçmişi gələcəyə bağlayır və ümumiyyətlə zamanın sərhəddidir, birinin başlanğıcı və o birinin sonu kimi".

İnsanın həyatı sonludur, ancaq nəsillər onu davam etdirirlər. Ləyaqətlə yaşayıb nəsillərə uğurlu yol açmaq insani borcdur. *"Qismət"* şeirinin ümumi məzmunu bu ideya üzərində qurulub. Eyni mövzunun daha bir çaları "Güc və gücsüzlük" şeirində öz ifadəsini tapıb. Burda gücün, gücsüzlüyün meyarı həyat eşqinin gücilə ölçülür.

Həyat insandan zəhmətə, çətinliyə, əziyyətə qatlaşmağı tələb edir. Dünya yaşamaq uğrunda mübarizə zərurəti üzərində qərar tutub. Bu səbəbdən əslində dünyada ən çətin sənət yaşamaqdır. Belə gerçəklər *"Ölümə nə var ki"* şeirinin leytmotividir. Yaşamaq ölməyə gedən yoldur fikri vurğulanır bu şeirdə. Başqa bir şeirində həmin fikir bu tərzdə səslənir:

***Çeşmə axıb selə dönür,***
***Sel ümmana çatıb sönür.***
***Bax beləcə keçir ömür***
***İlk an, son an arasında.***

Hamlet İsaxanlı həyat, ölüm mövzusunu yeri gəldikcə mənalandırıb. Bu halda sevinc, kədər duyğulan bir axarda qovuşurlar. Kədəri yenmək, sevinci artırmaq həyatı davam etdirmək deməkdir. Bu mənada düşüncələr xüsusən *"Yollar"* şeirində təcəssüm etdirilib. Ondan bəzi sətirləri burda iqtibas etmək lazım gəlir:

***Həyat vəfasızdır, gödəkdir betər,***
***Fərəhlə başlayar, bir ahla bitər,***
***Qaydadır insanlar dünyadan gedər,***
***Təbiətlə heç kəs döyüşməyəcək.***
***Vəfalı dostları boğacaq kədər,***
***Dünyanın başına daş düşməyəcək.***

***Şairim, birzaman izimiz itər,***
***Hərdən ayaqsaxla, nəfəsini dər,***
***Məclisə saz gəlsin, qəm-qüssə yetər,***
***Aşıq təzə-təzə dastan deyəcək.***
***Sevdadan od alaq son ana qədər,***

***Sevənlər bir daha küsüşməyəcək.***

*Hamlet İsaxanlının şeirlərində həyata inam duyğusu əsas məziyyətlərindəndir. Əlbəttə, ürəkdə inam olmasa, şeir-sənət doğula bilməz. Poeziya təbiətən bəşər növünü ucaltmaq, nəcibləşdirmək qayəsi daşıyur. Gözəlliyə, məhəbbətə tapınmaq, əslində, bu qayəyə xidmət edir.*

*Məhəbbət mqvzusu yenə poetik yaradıcılıqda hakim vəziyyətini saxlayır. Hamlet İsaxanlı həmin mövzuya sadiqdir; ondan çox yazır. "Səs"* şeirində gözəlliyi, məhəbbəti kainatın ahəngi kimi düşünür. Könüllərin vəhdətini yaradan ecazkar qüvvə kimi anladır. Romantik ruhlu bu şeirin sonluğunu oxucunun diqqətinə çatdırıram:

***Məhəbbətə həyat verən saf nəfəsdir,***
***Ən ulu səs qəlbimizdən doğan səsdir.***
***O, nə xülya, nə ötəri bir həvəsdir,***
***O, könüldən könüllərə hopan səsdir.***
***Odur qüdrət, odur şəfqət,***
***Odur ruhun, xəyalların sərkərdəsi,***
***Haqqın səsi, eşqin səsi, qəlbin səsi.***

Bu mövzuda *"İkimizdən birimiz"* şeirində məhəbbət daha konkretdir. Burda o, iki insan taleyinin bağlılığı kimi mənalandırılır. Onun bəzi yerini gətirəcəm, əvvəlcə bir kəlamı xatırladım: *"Məhəbbət bir "Mən"in başqa bir "Mən"də özünü tapmasıdır", - bu fikir Hegelə məxsusdur.* Hegelin bu kəlamında məhəbbət sevən ruhların vəhdəti deməkdir. ("Mən" ideal anlamdır, özünü dərk edən ruh mənasındadır). Ancaq onun bu kəlamı əslində ilahi eşqə aiddir. Məsələn, Füzulinin lirikası bu növ ilahi eşqi canlandırıb.

İndi dönək *"İkimizdən birimiz "* şeirinin real sevgi dünyasına. Burda iki sevənlərin birləşən taleyindən söz açıldığını söylədik. Həmin qovuşan məhəbbət uğurlu taledir: budur şeirin mahiyyəti. Bu mahiyyəti xüsusən aşağıdakı sətirlər daha aydm canlandırır:

***Bir söz deyim müxtəsər,***
***Məhəbbətdir hər əsər.***
***Bir vurmazdı qəlbimiz,***
***Yazılmazdı şerimiz***
***Ikimizdən birimiz***
***Dünyaya gəlməsəydik.***

Hamlet İsaxanlının kitabında məhəbbət mövzusu təkcə deyilənlərlə qurtarmır. Eyni zamanda Vətən məhəbbətli şeirlərindən söhbət açmaq lazımdır. O, dünyanın bir çox ölkələrində olub, geniş şöhrətlənib Məşhur XəzərUniversitetinin qurucusu, rektoru kimi Şərqdə, Qərbdə tanınır; çoxlu dostları var. Ancaq harda olur olsun, Vətənin, ata yurdunun ecazkar cazibəsi onu özünə çəkir. Bu xüsusda *"Dalğalarla yan-yana"* şeirindən örnək gətirək:

***Gündoğandan günbatana gəzmişəm,***
***Oxşamıram bu dünyadan doyana.***
***Şaxta vıırub, od ələnib, dözmüşəm,***

***Səyyah gərək hər möhnətə dayana.***
***Yaraşıqlı, möcüzəli birdiyar,***
***Amma orda nə eşqim, nə izim var.***
***Öz yurdumda gül açmışdı arzular,***
***O güllərin qoxusundan harda var?!***
***Yaxşı deyib ustadımız Şəhriyar:***
***"Yel gələndə ver gətirsin bu yana,***
***Bəlkə mənim yatmış bəxtim oyana ".***

*Vətən sevgisinin əzəl mənbəyi ata yurduna sevgidən başlanır. Doğma yurdun, elin xeyir-duası uğurlayır dünyaya yolumuzu. Bunun üçün bu məbədə həmişə ehtiram hissi duyuruq. Bu cəhətdən Hamlet İsaxanlının "Ziyarət" şeri çox ibrətamizdir. Bu şeir müqəddəs ata ocağını ziyarət etməkdən doğan zərif, həzin duygulardan yoğrulub. Bir zaman bu ocağı isidənlər, indi artıq xatirəyə dönənlər haqqında poemadır bu. Burada canlanan kövrək xatirələr ürəkdə əks-səda tapir.* Hamlet İsaxanlı anılan şeri olduqca kövrək ahənglə oxuyur. Kənddə qardaşı oğlunun toy məclisində onu oxuyanda, oyatdığı xatirələr çox adamları kövrəltdi. "Ziyarət"dən parçalar gətirmədən, onun haqqında fikrimi söylədiklərimlə tamamlayıram.

Bu yazıda Hamlet Isaxanlının şerlərindən seçmələr şərh edildi. Onların sayını artırmaq olar, ancaq şərh edilənlər kifayətdir. Sonda onun *"Köhnə çıraq"* poemasını qısaca səciyyələndirmək qalır. Poema filosof-kinik Sinoplu Diogenin həyatından bəhs edir.

Yunan fəlsəfəsini oxuyanlar kinik Diogen haqqında təsəvvürə malikdirlər. Eramızdan əwəl 4-cü əsrdə tərki-dünyalıq tərzində yaşayıb. İfrat asketliyi, qayda-qanunlara nifrəti (kinizm budur) müxtəlif lətifələr, hekayətlər mövzusuna çevrilmişdi, bu növ qaynaqlardan eyni zamanda poeziyada istifadə edilirdi. Nizami Gəncəvi ***"İqbalnamə"də*** onlardan bəzilərini Sokrata isnad edirdi. Bilindiyi kimi Plutarx İskəndərin Diogeni ziyarət etdiyini bildirirdi. Diogen gün işığında isinirmiş, İskəndərin lütfkarlığına qarşı: "Günəşimdən çəkil" deyə saymazlıq göstərmişdi. Geri dönəndə İskəndər öz yoldaşlarına deyir: "Mən İskəndər olmasaydım, Diogen olmaq istərdim" Nizami bu əhvalatı qələmə alanda bəzi dəyişikliklər etmişdi. Burda İskəndər Diogeni deyil, Sokratı ziyarət edir; Sokrat hökmdara mənən qalib gəlir. Bu təsvir anaxronizmdır: Sokrat İskəndər doğulandan 43 il əvvəl edam olunub. Nizami müdrikliyə qovuşmaqda Sokrata bənzədiyini məmnunluq hissilə xatırladırdı. Bəlkə Sokrat timsallı müdriklərin ziyarət edilməsini hökmdarlara anladırdı...

Diogenlə bağlı lətifələrə Puşkin daha çox maraq göstərirdi. *«Послание Лиде»* (1816) şeirində antik dövrdən, o cümlədən Diogenin qəribəliklərindən məlumatlar əks etdirib. Puşkin onun haqqında məlumatları yunan fəlsəfəsi tarixçisi Diogen Laertsinin əsərindən əxz edib. Bu anılan müəllif eramızın 3-cü əsrində yaşayıb, yazıb.

*«Послание Лиде»* şeirində Puşkin tərki-dünya Diogenin xüsusən çəlləkdə yaşamasını oxucusuna çatdırır. Suyu ovucla içməkdə (təbiətə qayıtmaqda) səadət aradığından danışır. Ancaq Diogen bu minvalla onu tapa bilmədiyini xatırladır.

Puşkin başqa *«Движение»* (1825) şeirində yenə Diogen mövzusuna qayıdır. Bu dəfə ciddi fəlsəfi məsələ ətrafında söhbət gedir. Hərəkətin mövcudluğunu inkar edənlərə Diogenin münasibəti haqqındadır söhbət. Məlumdur: yunan filosofu Zenon (eramızdan əvvəl 5-ci əsrdə yaşayıb) hərəkəti inkar edib. Onun "aporiaları"

(həlli müşkül mənasında) yunan fəlsəfəsində yayılmışdı. Bu inkarçılardan birinə cavab olaraq Diogen qalxıb onun qarşısında sükut içində gəzinir. Yəni, mənim bu gəzinməyimə bax, hərəkətin mövcudluğuna inan... Puşkin həmin epizoddan danışır; belə qəribə cavabı bəyənir. Eyni zamanda "israrçı Qalileyi" xatırlayır, onun doğruluğunu təsdiqləyir.

Müasir dövrdə Diogen, demək olar, tamamilə yaddan çıxıb. Bunun üçün Hamlet Isaxanlının bu mövzu ilə bağlı *"Köhnə çıraq "* poeması maraqlıdır. Poemada Diogen dahiliklə dəliliyi özündə birləşdirən, azad yaşamaq istəyən müdrik kimi səciyyələndirilir. Gündüz əli çıraqlı: *"Mən insan axtarıram"* sözü cəmiyyətdə saxtalığa qarşı nifrətdən doğurdu. Diogen öz qürurunu üstün tutmaq xarakteri ilə heyrətləndirirdi. Çəlləkdə yaşayanda, Iskəndərlə söhbətində, hətta əsir alınanda vüqarlı davranmağı poemada ifadəsini tapıb.

Hamlet İsaxanlı kinik Diogen haqqmda lətifələrin sadəcə təsvirilə məhdudlaşmır; onlan daxilən mənalandırır. Müasir dövrdə insan taleyini düşündürən ibrətamiz mənalarla "Köhnə çıraq" poemasını uğurlu bitirir.

**Camal Mustafayev**